***Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 12-də imzaladığı "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" Fərmanla yaxından tanış oldum. Fərman təbii ki, Azərbaycanın əsas qayğısı olan işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesi ilə bağlıdır. Bu istiqamətdə Prezident İlham Əliyev daim yeni addımlar atır, yeni sənədlər imzalayır. Məqsəd isə, şübhəsiz ki, erməni vandalları tərəfindən dağıdılmış şəhər və kəndlərimizin bərpası, yurd-yuvalarından qaçqın düşmüş vətəndaşlarımızın ləyaqətli şəkildə öz evlərinə qaytarılmasıdır.***

# Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinə geniş səlahiyyətlər verilib



Prezident İlham Əliyevin 12 avqust tarixli fərmanı Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin yaradılmasını nəzərdə tutur. Prezidentin başqa bir fərmanı ilə Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamə təsdiq edilmişdir. Fərmanla müəyyən edilir ki, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Xocalı, Xocavənd və Zəngilan rayonlarının inzibati ərazilərində yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi müvəqqəti olaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinə həvalə edilir. Azərbaycan Respublikasının Nazirlər Kabineti Baş İdarənin fəaliyyətinin təşkili ilə bağlı digər məsələləri həll edəcək.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamədə göstərilir ki, Baş İdarənin səlahiyyət dairəsi "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Prezidentinin 2021-ci il 7 iyul tarixli, 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edəcək. Həmin ərazidəki şəhər və rayonların inzibati ərazisində tikinti obyektlərinin inşasına və istismarına icazə vermək, aparılacaq tikintinin icazə verilən parametrləri barədə müraciətlərə baxmaq, tikinti məqsədləri üçün torpaq sahəsi ayrılarkən həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu yoxlamaq, səyyar və əsaslı tikinti olmayan obyektlərin, xırda pərakəndə ticarət obyektlərinin və komplekslərinin uyğunluğuna dair rəy vermək, şəhərsalma kadastrının aparılmasını təmin etmək də Baş İdarənin səlahiyyətinə daxildir.

Mənzil-qərargahı Bərdə şəhərində yerləşəcək Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır: müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, sahənin inkişafını təmin etmək, baş idarənin fəaliyyət istiqamətləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı komitəyə təkliflər vermək, dövlət şəhərsalma nəzarətini həyata keçirmək.

Baş İdarənin vəzifələrinə isə dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək, müvafiq sahə üzrə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, məskunlaşma sisteminin təhlükəli təbii proseslərdən və hadisələrdən mühafizəsi üçün tədbirlər hazırlamaq, tikilməkdə və istismarda olan bina və qurğularda qəza vəziyyəti yarandığı hallarda onun səbəblərinin araşdırılması və bərpa işləri üçün tədbirlərin hazırlanmasında iştirak etmək, müəyyən edilmiş qaydada şəhərsalma kadastrını aparmaq, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin işini təmin etmək və s. daxildir.

İdarə bundan əlavə, öz fəaliyyəti haqqında əhalini məlumatlandıracaq, özünün internet saytını yaradacaq, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyaları həmin saytda yerləşdirəcək, Baş İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görəcək.

İnanırıq ki, Prezidentin bu addımı da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasına xidmət edəcək. Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi isə ona verilmiş geniş səlahiyyətlərdən istifadə edərək, azad olunmuş ərazilərimizi tezliklə yenidən quraraq öz sahiblərinə – yerli əhaliyə təhvil verəcək.

***Vəkil HÜSEYNOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru***